# Azərbaycan Respublikası Hökuməti ilə Gürcüstan Respublikası Hökuməti arasında pensiya təminatı sahəsində vətəndaşların hüquqlarının zəmanətləri haqqında Saziş

Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Respublikası Hökuməti aşağıda Tərəflər adlandırılaraq, hər iki dövlətin vətəndaşlarının pensiya təminatı sahəsində hüquqlarının müdafiəsi zəruriliyindən çıxış edərək, aşağıdakılar haqqında razılığa gəlirlər:

## *Maddə 1*

Tərəflər vətəndaşlarının və onların ailə üzvlərinin pensiya təminatını ərazisində yaşadıqları dövlətin qanunvericiliyinə uğyun olaraq həyata keçirirlər.

## *Maddə 2*

Tərəflərin vətəndaşlarının pensiya təminatı bu Sazişə uyğun olaraq qarşılıqlı hesablaşmalar əsasında həyata keçirilir. Pensiya verilişinə çəkilən xərclərin ödənilməsi Tərəflərin səlahiyyətli orqanları vasitəsilə onların ərazisində qazanılmış staja mütənasib olaraq hər hansı vətəndaşın Tərəflərin ərazisində pensiya alması hüququna əməl etməklə təmin olunur.

Pensiya verilişi xərclərinin ödənilməsi qaydaları Tərəflərin səlahiyyətli orqanları arasında bağlanmış xüsusi Sazişlə nizama salınır.

## *Maddə 3*

Bu Saziş Tərəflərin qanunvericiliyi ilə müəyyən edilmiş və ya müəyyən ediləcək pensiya təminatının bütün növlərinə şamil edilir.

## *Maddə 4*

Tərəflərin vətəndaşlarına pensiya təyinatı onların yaşayış yeri üzrə aparılır.

Pensiya təminatı hüququnu, o cümlədən imtiyazlı şərtlərlə, xidmət illərinə görə pensiya təminatı hüququnu müəyyən etmək üçün iş stajına hər iki Tərəfin ərazisində olan iş müddəti (sığorta haqqı ödənilən dövr) nəzərə alınır.

Pensiyaların hesablanması əmək (sığorta haqqı ödənilən dövr) stajına hesablanan iş dövrünün əmək haqqından (gəlirindən) aparılır.

Tərəflərdən hər hansı birində milli valyuta tətbiq olunarsa, əmək haqqının (gəlirin) miqdarı pensiya təyin edilərkən müəyyən edilmiş rəsmi kursa əsasən nəzərə alınır.

## *Maddə 5*

Əmək zədəsi və ya peşə xəstəliyi nəticəsində əlilliyə və ailə başçısını itirməyə görə pensiyalar pensiya üçün müraciət edənin daimi yaşadığı dövlətin ərazisində qüvvədə olan

qanunçuluğa müvafiq olaraq onun pensiya ödənilməsi üçün nəzərdə tutulan öz vəsaiti hesabına hesablanır, təyin edilir və ödənilir.

Eyni zamanda, dəyən zərər əmək zədəsinin alındığı və ya onun ilk dəfə digər dövlətin ərazisində aşkara çıxarılmasından asılı olmayaraq, peşə xəstəliyinə səbəb ola biləcək əmək fəaliyyətinin aparıldığı Tərəfin vəsaiti hesabına gələcəkdə bərpa edilməklə yaşayış yeri üzrə dövlətin vəsaiti hesabına hesablanır və ödənilir.

Əgər peşə xəstəliyi almış şəxs hər iki Tərəfin ərazisində peşə xəstəliyinə səbəb ola biləcək sahələrdə və şəraitdə işləyib fəaliyyət göstərmişsə, dəyən zərər vətəndaşın daimi yaşadığı yer üzrə hesablanır və ödənilir. Lakin həmin vəsait göstərilən işin axırıncı dəfə ərazisində yerinə yetirdiyi dövlət tərəfindən digər tərəfin hesabına bərpa olunur.

### *Maddə 6*

Vətəndaşın Tərəflərin birinin ərazisindən digərinə gəldiyi halda, ona əvvəlki yaşayış yerində təyin olunmuş pensiyanın verilişi dayandırılır və yeni yaşayış yeri üzrə qüvvədə olan qanunçuluğa əsasən yenidən hesablanmaqla, ödəniş davam etdirilir.

### *Maddə 7*

Tərəflər öz dövlətlərində qüvvədə olan pensiya qanunçuluğu, onda olan sonrakı dəyişikliklər haqqında bir-birlərinə məlumat verməyi, həmçinin pensiya hüququna və onun məbləğinə əhəmiyyətli dərəcədə təsir edəcək xüsusatlar üzrə lazımi tədbirlər görməyi öz üzərlərinə götürürlər.

### *Maddə 8*

Müəyyən olunmuş qaydada pensiya təminatı üçün 01 yanvar 1993-cü ilə qədər verilmiş sənədlər Tərəflərin ərazisində leqallaşdırma aparılmadan qəbul edilir.

### *Maddə 9*

Bu Saziş imzalandığı andan qüvvəyə minir.

Sazişin ləğv edildiyi hallarda qəbul olunmuş öhdəliklərdən imtina edən dövlət digər tərəfi 6 ay müddətinə əvvəlcədən xəbərdar etməyə borcludur.

### *Maddə 10*

1993-cü il fevral ayının 3-də, Bakı şəhərində, iki nüsxədə, hər ikisi türk və gürcü dillərində tərtib edilmiş və imzalanmışdır. Hər iki mətn eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Hökuməti*** | ***Gürcüstan Respublikası Hökuməti*** |